**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AQRAR SAHƏDƏ İSTEHSAL POTENSİALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Şəlalə Knyaz qızı Həsənova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru<br>**Arzu Nəcəf oğlu Həsənov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru<br>**Səbinə İzzət qızı Vəliyeva** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Asif Mirlazım oğlu Mustafayev** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Hicran Rafiq qızı Muradova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti ilə Bakı Biznes Universitetinin birgə ED2.46 Dissertasiya şurası

| | |
|---|---|
| Birgə Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü,<br>iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Birgə Dissertasiya şurasının elmi katibi: ____________ | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova** |
| Elmi seminarın sədri: ____________ | iqtisad elmləri doktoru, professor,<br>Əməkdar kənd təsərrüfatı işçisi<br>**İslam Hacı oğlu İbrahimov** |

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son illər aqrar sahədə formalaşan yüksək dinamik mühit, iqtisadiyyatın bu mühüm sferasında iqtisadi inkişaf mexanizminə daha müasir və yeni yanaşmalar tələb edir. Göstərilən istiqamətdə iqtisadi artımla bağlı daxili potensialın müəyyənləşdirilməsi və mövcud resurslardan səmərəli istifadə etmək imkanı verən resursların aşkara çıxarılması ən mühüm məsələlərdəndir. Bu baxımdan aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq təsərrüfatlarının və müəssisələrin parametrlərindən asılı olaraq istehsal potensialının formalaşdırılması və həmin potensialdan istifadənin səmərəliliyinin yüksəldilməsi aqrar inkişafın prioritetlərindən hesab edilir. Qeyd etmək lazımdır ki, ölkənin ərzaq məhsullarına, bir sıra sənaye sahələrinin xammala olan tələbatının ödənilməsində xüsusi rolu olan aqrar iqtisadiyyatın inkişaf vəziyyətini tədqiq etmək və qiymətləndirmək üçün elmi cəhətdən əsaslandırılmış iqtisadi mexanizmlərin olması xüsusilə vacibdir. Elmi cəhətdən əsaslandırılmış daha təkmil inkişaf mexanizmlərinin hazırlanması, əslində aqrar sahənin istehsal ehtiyatlarının formalaşması və daha səmərəli istifadəsi sahəsində mövcud və ya yarana biləcək problemlərin vaxtında aradan qaldırılmasında əhəmiyyətli rol oynayar.

Beləliklə, aqrar istehsalın, xüsusən onun mühüm bölməsi olan kənd təsərrüfatının ayrı-ayrı sahələrinin iqtisadi vəziyyətinə və inkişafına təsir edən istehsal potensialının formalaşması və qiymətləndirilməsi üçün yeni metod və modellərin müəyyən edilməsi daha da aktuallaşır. Qeyd olunanlar göstərir ki, resurs potensialının inkişafı və ondan səmərəli istifadə mexanizmi ilə bağlı prioritetlər aqrar sahənin bütövlükdə iqtisadi potensialının inkişaf etdirilməsinə yönəldilir.

Deməli, aqrar sahənin inkişafı, onun malik olduğu istehsal resurslarından səmərəli istifadə olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Bu isə müasir iqtisadi şəraitdə istehsal potensialının formalaşması və inkişaf etdirilməsi proseslərinin təkcə ərazi və sahə komponentlərini nəzərə almağı deyil, eyni zamanda ondan istifadənin səmərəliliyinin yüksəldilməsi ilə bağlı daha təkmil qərarların qəbul edilməsini tələb edir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir ki, son illərdə "Azərbaycan 2030: sosial-iqtisadi

inkişafa dair Milli Prioritetlər”də göstərildiyi kimi, *“ölkənin sosial-iqtisadi potensialı artmış, iqtisadiyyatın xarici təsirlərə dözümlülüyü yaxşılaşmışdır”*[1]. Həmçinin ərazilərimizin erməni işğalından azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün təmin olunması, kənd təsərrüfatının sahə strukturunda ciddi keyfiyyət və kəmiyyət dəyişiklilərinə zəmin yaratmaqla istehsal potensialının genişlənməsinə zəmin yaratmışdır.

Qloballaşmanın yaratdığı indiki şərtlər daxilində aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı tədbirlər, aqrar sahənin ehtiyat potensialının elementlərinin mövcud vəziyyətini və onların intensiv inkişaf perspektivlərini qiymətləndirmək əsasında hazırlanır. Bununla əlaqədar olaraq, sosial-iqtisadi sistemin fəaliyyətinin təmin edilməsində vacib element olan aqrar sahənin resurs potensialının inkişafı, onun daha səmərəli istifadəsi tədbirlərinin reallaşdırılmasını şərtləndirir.

Aqrar sahənin resurs potensialından səmərəli istifadə tədbirlərinin iqtisadi proseslərin inkişaf meylinə uyğun şəkildə həyata keçirilməsi hazırda ən vacib məsələlərdəndir. Bu şərti yerinə yetirməyin əsas istiqamətlərindən biri resurs potensialının vəziyyəti və inkişaf perspektivləri barədə analitik məlumatların uyğunluq dərəcəsini artırmaqdır. Beləliklə, kənd təsərrüfatının inkişafının aqrar siyasətdə prioritet təşkil etdiyi mövcud iqtisadi şəraitdə tədqiq olunan problemə sistemli yanaşma tələblərinə cavab, strateji tədbirləri həyata keçirməyə imkan verən və “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı”, “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi”, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası” və işğaldan azad edilmiş ərazilərin inkişafı baxımından ehtiyat potensialının təhlilinə, qiymətləndirilməsinə və inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə böyük ehtiyac vardır. Bütün bunlar dissertasiya işi mövzusunun aktuallığını isbatlayır və tədqiqatın istiqamətini müəyyənləşdirir.

---

[1] https://president.az/az/articles/view/50474

Ehtiyat potensialının səmərəli istifadə edilməsi problemlərinin həlli, onun nəzəri və metodoloji aspektlərinin və aparılan tədqiqatların elmi-praktik əsaslandırılmasını tələb edir. Aqrar sahədə istehsal potensialının mahiyyəti, quruluşu, müxtəlif amilləri və ondan səmərəli istifadə problemləri daim iqtisadçı alimlərin diqqətində olmuşdur. Qeyd edilən istiqamətdə tədqiqatlar aparan ölkə iqtisadçılarından Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, E.A.Quliyev, E.R.Ibrahimov, B.X.Ataşov, İ.H.Alıyev, İ.H.İbrahimov, V.H.Abbasov, A.H.Vəliyev, Ş.T.Əliyev, E.M.Hacızadə, A.N.Həsənov, M.C.Hüseynov, N.C.Qafarov və digərlərini göstərmək olar.

Potensiallardan istifadənin müxtəlif aspektləri ilə bağlı xarici ölkə alimlərindən A.A.Şalmuyev, V.A.Svobodin, D.İ.Konkurin, M.V.Melnik, S.N.Qonçarova, S.Q.Qolovina, O.A.Lomovtseva, T.Y.Çerepuxin, E.V.Popov, F.M.Rusinov, O.N.Misko və başqaları geniş araşdırmalar aparmışlar. Lakin bu və digər müəlliflərin əsərləri resurslardan istifadə kontekstində səmərəliliklə bağlı problemləri əhatə etsədə aqrar sahənin istehsal potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi məsələlərini tam şəkildə əks etdirməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti kimi aqrar sahə və aqrar təsərrüfatçılıq subyektləri müəyyən edilmişdir. Tədqiqatın predmetini aqrar sahənin istehsal potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi problemlərinin tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi aqrar sahənin istehsal potensialından istifadənin elmi-nəzəri məsələlərinin araşdırılması, istehsal potensiallarından istifadənin mövcud vəziyyətinin təhlili, potensialın istifadəsinin təşviqi və səmərəliliyinin artırılması istiqamətində elmi-metodiki müddəaların və praktiki tövsiyələrin hazırlanmasıdır.

Tədqiqat istiqamətinə uyğun olaraq qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- aqrar sahənin istehsal ehtiyatları potensialının formalaşması və inkişafı xüsusiyyətlərinin əsas aspektlərinin müəyyənləşdirilməsi;
- istehsal potensialından istifadənin aqrar sahənin inkişafındakı rolunun müəyyən edilməsi;

- aqrar sahənin istehsal potensialının (torpaq, əmək və maddi-texniki) mövcud vəziyyətinin və inkişaf istiqamətinin müəyyən edilməsi;
- aqrar sahədə istehsal potensialından istifadə səviyyəsinin qiymətləndirilməsi;
- istehsal potensialından istifadə səviyyəsi ilə məhsul istehsalı arasındakı əlaqənin və asılılığın müəyyən edilməsi:
- aqrar sahədə istehsal potensialından istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsi;
- aqrar sahədə istehsal potensialının formalaşması parametrlərinin təhlili əsasında ehtiyatların istifadəsinin səmərəliliyinin yüksəldilməsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları:** Dissertasiya işində aşağıdakı metodlar və vasitələrdən istifadə edilmişdir: analiz, sintez, iqtisadi-riyazi, iqtisadi-statistik, analitik təhlil, müqayisəli təhlil, korrelyasiya-reqressiya təhlili.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Aqrar sahənin istehsal potensialının formalaşması prosesində yaranan iqtisadi münasibətlər və mövcud istehsal potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi ilə bağlı araşdırmanın müdafiəyə çıxarılan əsas müddəaları aşağıdakılardır:

- aqrar sahədə potensiallar, onların iqtisadi mahiyyəti və istifadəsinin səmərəliliyi ilə bağlı nəzəri və metodoloji müddəaların araşdırılmasına, iqtisadçı alimlərin məsələyə münasibətlərinə yeni prizmadan baxmağa ehtiyac yaranmışdır;
- istehsal potensialının mövcud vəziyyətinin və ondan istifadə səviyyəsinin qiymətləndirilməsinə ehtiyac vardır;
- istehsal potensiallarından istifadənin yaxşılaşdırılması məqsədilə korrelyasiya və reqressiya təhlili əsasında məhsul istehsalının artırılması üzrə yeni ehtiyatların müəyyən edilməsi məqsədəuyğundur;
- istehsalın torpaq, əmək və maddi-texniki ehtiyatlarla təmin edilməsi və iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətləri üzrə tədbirlərin müəyyənləşdirilməsinə ehtiyac yaranmışdır;

- aqrar sahədə istehsal potensialından səmərəli istifadə və bu prosesin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətlərinin konkretləşdirilməsinə və əsaslandırılmasına ehtiyac vardır;
- aqrar sahədə istehsal potensialından istifadənin səmərəliliyinin daha da yüksəldilməsi üçün təşviq tədbirlərinin tətbiqi və dövlət dəstəyinin istiqamətlərinin müəyyən edilməsi zəruri hesab edilir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

- aqrar sahənin istehsal potensialı konsepsiyasının tərkib hissəsi olan istehsal potensialının hər bir komponentinin optimal istifadəsi ilə bağlı əsas xüsusiyyətlər müəyyən edilmiş, istehsal potensialının inkişaf parametrləri qiymətləndirilmişdir;
- aqrar sahənin istehsal potensialının formalaşması, istifadəsi və inkişafının əsas aspektləri sistemli şəkildə müəyyən edilmişdir;
- aqrar sahədə istehsal potensialının mövcud vəziyyəti və inkişaf meylləri təhlil edilərək qiymətləndirilmişdir;
- aqrar sahənin istehsal potensialından istifadə səviyyəsi korrelyasiya-reqressiya təhlili əsasında müəyyənləşdirilmiş, istehsal ehtiyatlarından istifadənin səmərəliliyinə təsir edən amillər aşkar edilərək sistemləşdirilmişdir;
- mövcud inkişaf şəraitində torpaq, əmək və maddi-texniki ehtiyatlar ilə təminat əsasında istehsal potensialından səmərəli istifadənin konseptual istiqamətləri əsaslandırılmışdır;
- istehsal potensialının inkişaf perspektivləri kontekstində mövcud resurslardan daha səmərəli istifadənin təşviqi tədbirləri əsaslandırılmışdır;
- aqrar sahənin istehsal potensialının səmərəli idarə edilməsi, istehsalın səmərəliliyinin yüksəldilməsi istiqamətində təklif və tövsiyələr hazırlanmış, onların elmi və praktiki baxımdan əhəmiyyəti əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti aqrar sahənin resurs potensialının səmərəli istifadəsinə yönəlmiş nəzəri və metodoloji yanaşmaların, bu istiqamətdə elmi-praktiki yönümlü tədbirlərin iqtisadi cəhətdən əsaslandırılmasından ibarətdir.

Dissertasiya işinin praktiki əhəmiyyəti yanaşmaların, tövsiyə və təkliflərin aqrar sahədə istehsalın artırılması və iqtisadi səmərəliliyinin yüksəldilməsi tədbirlərinin müəyyən edilməsinə, aqrar sahənin resurs potensialının inkişafı və səmərəli istifadəsi strategiyasının hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın əsas nəticələri həmçinin, aqrar sahənin ehtiyat potensialının inkişafındakı meyllərin təhlili və qiymətləndirilməsində, dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsində və uyğun məqsədlər üçün istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 9 məqalədə (3-i xaricdə olmaqla) və 5 tezisdə (2-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Kənd təsərrüfatında istehsal resurslarından istifadənin mövcud vəziyyəti və inkişaf meylləri" (Gəncə, 2018), "Kənd təsərrüfatında istehsal potensialından istifadənin səmərəliliyi və yüksəldilməsinin kompleks təhlili" (Gəncə, 2019), "The role of agro – policy in efficient use of agricultural resource potential" (Birmingham, 2019), "Kənd təsərrüfatı müəssisələrində istehsal potensialindan istifadənin iqtisadi səmərəliliyi" (Gəncə, 2021), "The impact of production potential usage in agricultural field on economic development" (Australia, 2021) adlı tezisləri göstərmək olar.

Dövri elmi nəşrlərdə müəllifin "Особенности эффектного использования производственного потенциала в аграрном секторе" (Киров, 2017), "Aqrar sahədə istehsal potensialının səmərəli təşkilində inkişaf istiqaməti" (Gəncə, 2019), "Aqrar sahədə dövlət yardımlarının kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsində rolu" (Gəncə, 2020), "Scientific and theoretical basis for determining production capacity and assessment of resource opportunities in the agricultural sector" (Praqa, 2020), "Aqrar istehsalın səmərəliliyinin yüksəldilməsində dövlət dəstəyinin təsiri mexanizmi" (Gəncə, 2021), "Torpaq, su və əmək resurslarından aqrar istehsalda səmərəli istifadə istiqamətləri" (Gəncə, 2022), "Aqrar sferada istehsal potensialından istifadənin səmərəliliyinin metodoloji əsasları" (Bakı, 2022), "Оценка уровня использования

производственного потенциала в аграрном секторе” (Москва, 2022), “Aqrar sahədə iqtisadi potensialın regional inkişafının əsas istiqamətləri” (Naxçıvan, 2022) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi, giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 256548 işarədən ibarətdir. Giriş 12877 işarə, I fəsil 81759 işarə, II fəsil 71193 işarə, III fəsil 59688 işarə, nəticə 9466 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 19748 işarə təşkil edir. Cədvəl, şəkil və ədəbiyyat siyahısı istisna olmaqla dissertasiyanın həcmi 231337 işarədir. Tədqiqat işində 11 cədvəl və 3 şəkil verilmiş, istifadə edilən ədəbiyyat siyahısında isə 147 adda mənbə göstərilmişdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin “**Aqrar sahədə istehsal potensialının iqtisadi mahiyyəti və ondan istifadənin səmərəliliyi ilə bağlı elmi-nəzəri yanaşmalar”** adlı birinci fəslində aqrar sahədə potensiallar, onların iqtisadi mahiyyəti və xüsusiyyətləri ilə bağlı nəzəri baxışlar, aqrar sahənin istehsal potensialından istifadənin iqtisadi səmərəliliyinin metodoloji əsasları və aqrar sahədə istehsal potensialından istifadənin iqtisadi inkişafa təsiri məsələləri şərh edilmişdir.

Ayrı-ayrı sahələrdə istehsal potensialının müəyyən edilməsi və istehsal imkanlarının qiymətləndirilməsi probleminin həlli müasir şəraitdə ən aktual məsələlərdən hesab edilir. Xüsusilə kənd ərazilərinin sosial-iqtisadi cəhətdən inkişaf etdirilməsi, rəqabət qabiliyyətli və yüksək keyfiyyətli məhsul istehsalının təmin edilməsi və müxtəlif istehsal sahələri ilə məşğul olan sahibkarlıq təsərrüfatlarının və müəssisələrin texniki baxımdan yenilənməsi və modernləşdirilməsi tədbirlərinin həyata keçirilməsi istehsal potensialının

səmərəli şəkildə istifadəsinə olan zərurətlə şərtlənir.

Aqrar sahədə istehsal potensialından istifadənin səmərəliliyi, faydalılığı və tamlığı istehsal ehtiyatlarının idarə edilməsinin vacib keyfiyyət göstəricisi hesab edilir. Bu onunla şərtlənir ki, kəndin sosial-iqtisadi inkişafı onun istehsal potensialından hansı ölçüdə və nə dərəcədə səmərəli istifadə edilməsindən asılıdır. Hər bir istehsal sahəsinin malik olduğu resurslar, istehsal sahələrinin müqayisəli olmaması və müxtəlifliyi ehtiyatların mövcudluğu və onun iqtisadi inkişafının nəticələri arasında qarşılıqlı əlaqənin tədqiq edilməsini çətinləşdirir. Qeyd etmək lazımdır ki, ehtiyatların mövcudluğunun, onların səciyyəvi xüsusiyyətlərinin və keyfiyyətinin müəyyən edilməsi ilə yanaşı konkret istehsal sahəsinin ümumi təsərrüfat sistemində yerini və rolunu müəyyən etmək də vacib məsələlərdəndir.

Araşdırmalar göstərir ki, istehsal potensialı əmək, təbii, istehsal, maliyyə ehtiyatlarından ibarət olan istehsal potensialını, habelə investisiya və mərkəzləşdirilmiş kapital qoyuluşlarını, yəni cəlb edilən ehtiyatları özündə birləşdirir. Həmçinin bu iqtisadi kateqoriya təbii, əmək, əşyalaşdırılmış və əşyalaşdırılmamış ehtiyatları xarakterizə etməklə bir-biri ilə qarşılıqlı hərəkətlər prosesində təsərrüfat fəaliyyətinin həyata keçirilməsini təmin edir. Konkret ərazidə olan mineral ehtiyatlar, habelə torpaq, su, meşə, heyvan mənşəli ehtiyatların məcmusu təbii istehsal potensialının əşya formasında təzahürüdür.

Təhlillər əsasında istehsal potensialının strukturunda aşağıdakı növləri fərqləndirmək olar: təbii-iqlim, məlumat, sahibkarlıq, elmi-texnoloji, maliyyə və əmək potensialı. İstehsal potensialı anlayışının mahiyyətini daha tam açıqlamaq üçün onun strukturunda tək kəmiyyət xarakteristikalarını deyil, həm də istehsal potensialının struktur elementlərinin keyfiyyətini əks etdirən xarakteristikaları seçmək məqsəduyğundur. Deməli, istehsal potensialı hər hansı bir sahənin inkişaf bazasının kəmiyyət və keyfiyyət xarakteristikalarının məcmusudur.

Beləliklə, ərazilərin müvəffəqiyyətlə fəaliyyət göstərməsi və inkişaf etdirilməsi əhəmiyyətli dərəcədə ehtiyatların mövcudluğu, onların strukturu, yenilənməsinin sürəti, istifadəsinin səmərəliliyi, inkişaf səviyyəsi və ixtisaslaşması ilə müəyyənləşdirilir. Deməli konkret ərazinin, sahənin, müəssisənin iqtisadi inkişaf imkanlarını, istiqamətini və səmərəliliyini həmin ərazidə mövcud olan istehsal

potensialı əhəmiyyətli dərəcədə müəyyən edir. Bu isə o deməkdir ki, konkret ərazinin, sahənin, müəssisənin iqtisadi inkişafı ehtiyatların mövcudluğu ilə yanaşı onlardan istifadənin səmərəliliyi ilə bilavasitə bağlıdır.

Dissertasiyada ehtiyat potensialı, iqtisadi potensial, təbii potensial və istehsal potensialı araşdırılır, həmin potensialların mahiyyətinə müxtəlif müəllif yanaşmaları təhlil edilir və sistemləşdirilir. Potensiala sahənin müəyyən vaxt ərzində iqtisadi inkişafın strateji məqsədlərinə nail olmaq üçün istifadə edilə biləcək imkanlarının məcmusu kimi nəzərdən keçirilir.

Aqrar sahədə istehsal potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsi onun hər bir elementinə spesifik xüsusiyyətləri baxımından fərdi yanaşma tələb edir. Bu həm də onunla bağlıdır ki, kənd təsərrüfatının resurs potensialı ilk növbədə torpaq ehtiyatları, əmək ehtiyatları və əsas vəsaitlərin dəyəri ilə ölçülür. Qeyd etmək lazımdır ki, istehsal potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi, mövcud ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması, eyni zamanda iqtisadi vəziyyətin yaxşılaşdırılması və həmin imkanlardan daha təkmil istifadə yollarının müəyyən edilməsi ilə birbaşa bağlıdır.

Şübhəsiz ki, istehsal potensialı hər bir komponentin imkanlarından, istehsal sistemindəki ehtiyatların qarşılıqlı əlaqəsindən, məhsulların quruluşundan və parametrlərindən asılıdır. Əsaslandırılır ki, istehsal potensialının hər bir komponentinin imkanları istifadə olunmamış ehtiyatlardan ibarətdir.

Qeyd edilənlər göstərir ki, aqrar sahədə istehsal ehtiyatlarından istifadənin səmərəliliyinə nail olmaq üçün konkret istehsal ərazisinin istehsal imkanlarını, həmin ərazinin və hər bir iqtisadi fəaliyyət sahəsinin inkişaf xüsusiyyətlərini nəzərə almaq vacibdir. Bu, bütövlükdə aqrar iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsinin başlıca şərtlərindən olmaqla istehsal olunan məhsula daxili və xarici tələbi formalaşdıran güclü alət kimi özünü göstərir.

Dissertasiyada istehsal potensialından istifadənin iqtisadi inkişafa təsir istiqamətləri araşdırılır. Bu istiqamətlər kifayət qədər potensialı olan sahələrin fəallaşdırılması, ixracın idxalı əvəzləməsinin reallaşdırılması, ölkə daxilində məhsullara tələbin formalaşması, daha

səmərəli istehsal sahələrinin yaradılmasının təşviqi və şaxələndirilməsi, aqrar iqtisadiyyatın inkişafının innovasiya istiqamətli olması, istehsal sahələrinin xüsusiyyətləri nəzərə alınmaqla istehsal güclərinin artırılması və texnoloji bazasının formalaşdırılması və s. məsələləri göstərmək olar. İstehsal potensiallarından səmərəli istifadənin iqtisadi inkişafa təsiri müxtəlif istiqamətlərdə biruzə verir.

Beləliklə, aqrar sahənin inkişafı və istehsalın artımı daxili ehtiyatlardan daha səmərəli istifadə hesabına mümkündür. Bu siyasətin səmərəli şəkildə reallaşdırılması üçün isə dövlət tərəfindən alıcılıq qabiliyyətli tələbi yaratmaq və aqrar sahə müəssisələrinin kifayət qədər maliyyələşdirilməsi məsələsinin davamlığını təmin etmək, bütövlükdə təşviq tədbirlərini genişləndirmək ən mühüm prioritetlərdən olmalıdır.

İkinci fəsildə **“Aqrar sahədə istehsal potensialından istifadənin mövcud vəziyyəti”**nin təhlili verilir. Aqrar sahədə istehsal potensialı: torpaq, əmək və maddi-texniki ehtiyatlarla təmin olunma səviyyəsi, istehsal potensialından istifadə ilə iqtisadi göstəricilərin səviyyəsi arasında asılılıq təhlil edilir, istehsal potensialından istifadənin iqtisadi səmərəliliyi qiymətləndirilir.

Aqrar sahənin dayanıqlı inkişafı və səmərəliliyin artırılması dövlətin iqtisadi siyasətinin prioritetlərindən hesab edilir. Bütövlükdə aqrar sahənin istehsal potensialının bərpası üçün təşkilati-iqtisadi, tənzimləmə mühitinin yaradılması və bu istiqamətdə davamlı təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi aqrar sahəni idarə edən strukturların əsas vəzifələrindən biridir. Hazırda müəssisə və regionların istehsal potensialı sosial-iqtisadi inkişafın əsas şərtlərindən olmaqla, torpaq, texniki, əmək ehtiyatlarının mövcud vəziyyəti və keyfiyyəti ilə müəyyən edilir.

Aqrar istehsal potensialları torpaq, əmək, texniki və texnoloji ehtiyatların məcmusundan ibarət olmaqla, bir-biri ilə əlaqəli və qarşılıqlı fəaliyyət göstərən kompleks bir sistem kimi, müəssisənin potensialından birbaşa asılıdır. Qeyd edilir ki, aqrar sahədə istehsal həcminin artırılması torpaqların səmərəli istifadəsinə, maliyyələşdirmənin, texnika və texnologiyanın, iqtisadiyyatın və ekologiyanın vəhdətinin təmin edilməsinə əsaslanır. Qeyd edilənlərlə yanaşı, müasir dövrdə informasiya və innovasiya, təşkilatçılıq və

idarəetmə kimi potensial elementlərin rolu xeyli artmışdır. Aqrar sahənin istehsal potensialından tam istifadə o deməkdir ki, mövcud ehtiyatlar səmərəli şəkildə paylanır və maksimum səviyyədə və səmərəli şəkildə istifadə olunur.

Tədqiqatlara əsaslanaraq qeyd etmək olar ki, aqrar sahədə istehsal potensialından istifadənin səviyyəsinə elmi-texniki və texnoloji tərəqqi, əməyin təşkili və kooperasiyası, istehsalın intensivliyi və təmərküzləşməsi, infrastrukturun yaradılması aqrar təsərrüfat xammalı ilə fəaliyyət göstərən emal sənaye sahələrinin inkişafı, səmərəli idarəetmə kimi amillər də müsbət təsir göstərir.

Aqrar sahədə istehsal ehtiyatları ilə təmin olunmada torpaq xüsusi və aparıcı mövqeyə malikdir. Araşdırmalar göstərir ki, aqrar təsərrüfata yararlı torpaq sahələrinin miqyasında ciddi artıma nail olmaq çox çətindir. Bu baxımdan kənd təsərrüfatına yararlı torpaq sahələrinin qorunmasına ciddi ehtiyac vardır. Torpaqlardan səmərəli istifadə yararlı torpaqların qorunması və gələcək nəsillərə ötürülməsi baxımından olduqca vacib məsələlərdən hesab edilir.

Statistik məlumatların təhlilindən aydın olur ki, respublikamızda kənd təsərrüfatına yararlı torpaq sahəsi 2022-ci ildə 2018-ci ilə nisbətən 0,02, çoxillik əkmələr 7,3% artmış, əkin sahəsi 0,2 faiz, dincə qoyulmuş torpaq sahəsi 2,2%, biçənək və örüş-otlaq sahəsi isə 0,5% azalmışdır (cədvəl 1).

**Cədvəl 1.**

**Kənd təsərrüfatına yararlı torpaq sahələrinin tərkibi (min ha)**

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2018-ci illə müqayisədə 2022-ci ildə, faizlə |
|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatına yararlı torpaqlar | 4779,5 | 4779,7 | 4780,1 | 4780,6 | 4780,5 | 100,02 |
| Əkin yeri | 2057,9 | 2056,5 | 2045,2 | 2049,8 | 2052,8 | 99,8 |
| Dincə qoyulmuş | 40,0 | 39,5 | 39,2 | 39,2 | 39,1 | 97,8 |
| Çoxillik əkmələr | 255,0 | 260,3 | 272,7 | 274,1 | 273,6 | 107,3 |
| Biçənək və örüş-otlaq sahəsi | 2426,6 | 2423,4 | 2423,0 | 2417,5 | 2415,0 | 99,5 |

*Mənbə: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [9, s. 53].*

Göstərilənlərlə yanaşı, işğaldan azad edilmiş ərazilərinin torpaqlarının milli iqtisadiyyata inteqrasiyası ümumi inkişafın sürətlənməsinə, məşğulluğun təmin olunmasına, istehsal və ixrac yönümlü dəyər zəncirinin yaradılmasına əlavə təkan verə bilər.

Qeyd edilməlidir ki, aqrar sahənin ehtiyatlarla təmin edilməsində respublikanın aqrar sahə strukturları arasındakı ciddi fərqlər müəssisələrin istehsal və təsərrüfat fəaliyyətlərinin nəticələrini qiymətləndirmək, potensiallarını müəyyənləşdirmək üçün fərqli yanaşmalar tələb edir. Bu baxımdan aqrar sahə məhsullarının istehsalı, müəssisələrin bazar dəyərinin müəyyən edilməsi, aqrar sahəyə investisiyaların cəlb edilməsi, obyektiv qiymətlərin yaradılması, aqrar sahə müəssisələrinin istehsalı və iqtisadi şəraitin bərabərləşdirilməsi, iqtisadi cəhətdən əsaslı tənzimləmə tədbirlərinin həyata keçirilməsi, mövcud ehtiyat potensialından səmərəli istifadənin təşkilində olduqca mühüm rol oynayır.

Dissertasiyada qeyd edilir ki, istehsal potensialının istifadə səviyyəsinin səmərəliliyini müəyyən etmək üçün müəssisələrin istehsal potensialına, gəlirliliyinə, potensial-rentabelliyinə, quruluşuna, keyfiyyətini əks etdirən göstəricilər sisteminə nəzər salmaq vacibdir.

Qeyd edilənlərin statistik məlumatlar və hesablamalar əsasında təhlili, respublikanın aqrar sahəsində illər üzrə fərqli mənzərə müşahidə etməyə əsas verir. İstehsal potensialından istifadə səviyyəsinin özünü bilavasitə ümumi məhsul istehsalında biruzə verdiyini nəzərə alsaq ilk növbədə ümumi məhsulun dinamikasına nəzər salmaq vacib hesab edilir.

Araşdırmalar göstərir ki, aqrar sahənin ümumi məhsulu faktiki qiymətlərlə 2018-ci ildə 7010,0 milyon manat olduğu halda, 2022-ci ildə 56,7% artaraq 10984,2 milyon manata çatmışdır. Bitkiçilik sahəsinin ümumi məhsulu 73,8% artaraq 3 186,0 milyon manatdan 5538,0 milyon manata, heyvandarlıq sahəsinin ümumi məhsulu isə 42,4% artaraq 3 824,0 milyon manatdan 5446,2 milyon manata yüksəlmişdir. Kənd təsərrüfatının ümumi məhsulunun strukturunun təhlili göstərir ki, 2018-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun 54,6%-i heyvandarlığın, 45,4%-i bitkiçiliyin payına düşdüyü halda, 2022-ci ildə heyvandarlığın payı 49,6%, bitkiçiliyin payı isə 50,4% olmuşdur (diaqram 1).




**Diaqram 1. Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat**

Aqrar sahədə ehtiyatlardan istifadənin iqtisadi səmərəliliyini müəyyən etmək aqrar sahənin inkişafı baxımından ən zəruri məsələlərdən hesab edilir. İstehsal potensialından istifadə müəssisələrin fəaliyyətini xarakterizə edən göstəricilər sistemi vasitəsilə müəyyənləşdirilə bilər. İstehsal potensialından istifadənin səmərəliliyi istehsalın nəticələrinin ehtiyat vahidinə nisbəti ilə müəyyən edilir və səmərəliliyin meyarı istehsalın nəticəsinin minimum ehtiyat xərcləri hesabına maksimuma çatdırılmasıdır. İstehsal potensialından istifadənin iqtisadi səmərəliliyini müəyyən etmək üçün göstəricilər sistemindən istifadə etmək zəruridir. Bu həm amillərin təsirinin ölçülməsinin fərqli təbiəti, həm də iqtisadi xarakterdə fərqlənən və həmişə müqayisə olunmayan müxtəlif istehsal ehtiyatları ilə əlaqədardır.

Dissertasiyada qeyd edilir ki, istehsal potensialından istifadənin səmərəliliyi, istehsal nəticələrinin potensial vahidlərinə (torpaq, əmək, texnika, maliyyə və s.) nisbəti ilə müəyyən edilir. Səmərəliliyin meyarı istehsalın nəticələrinin ən az ehtiyat xərcləri hesabına ən yüksək həddə çatdırılmasıdır. Bu vaxt bir sıra göstəricilərdən istifadə edilir və onların ölçülməsi fərqli iqtisadi xüsusiyyətləri ilə fərqlənir.

Qiymətləndirmənin əsas göstəriciləri ümumi məhsul, ümumi gəlir, xalis gəlir və məhsul satışından əldə edilən mənfəət, əsas vəsaitlər və ümumi kapitalın istifadə olunması ilə bağlı gəlirlilik əmsalıdır.

Statistik məlumatlar əsasında torpaqdan istifadənin iqtisadi səmərəlilik göstəricilərinə nəzər saldıqda məlum olur ki, 2018-ci illə müqayisədə 2022-ci ildə əkin yeri 0,2 faiz azalmış, kənd təsərrüfatına yararlı torpaq sahəsinin tərkibində olan xüsusi çəkisi isə 43,1 faizdən 43,0 faizə enmişdir. Müqayisə olunan dövrdə kənd təsərrüfatının ümumi məhsulu 56,7 faiz, o cümlədən bitkiçilikdə 73,8 faiz, heyvandarlıqda 42,4 faiz, 1 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsinə düşən ümumi məhsul 37,5 faiz artaraq 1466,7 manatdan 2016,9 manata, 1 ha əkin yerinə düşən ümumi məhsul isə 3,9 dəfə artaraq 1377,5 manatdan 5350,8 manata çatmışdır (cədvəl 2).

**Cədvəl 2.**

**Torpaqdan istifadə səviyyəsi və iqtisadi səmərəlilik göstəriciləri**

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2018-ci ilə nisbətən 2022-ci ildə, faizlə |
|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatına yararlı topraq sahəsi, min ha | 4779,5 | 4779,7 | 4780,1 | 4780,6 | 4 780,5 | 100,02 |
| o cümlədən: əkin yeri, min ha | 2057,9 | 2056,5 | 2045,2 | 2049,8 | 2052,8 | 99,8 |
| Kənd təsərrüfatının ümumi məhsulu, milyon manat | 7010 | 7836,7 | 8428,9 | 9163,4 | 10984,2 | 156,7 |
| o cümlədən: bitkiçilikdə | 3186 | 3751,2 | 4028,4 | 4511,0 | 5538,0 | 173,8 |
| Heyvandarlıqda | 3824,0 | 4085,5 | 4400,5 | 4652,4 | 5446,2 | 142,4 |
| Əkin yerinin kənd təsərrüfatına yararlı torpaq sahəsində xüsusi çəkisi, faizlə | 43,1 | 43,0 | 42,8 | 42,9 | 43,0 | x |
| 1 ha kənd təsərrüfatına yararlı torpaq sahəsinə düşən ümumi məhsul, manat | 1466,7 | 1639,6 | 1763,3 | 1916,8 | 2016,9 | 137,5 |
| 1 ha əkin yerinə düşən ümumi məhsul, manat | 1377,5 | 3810,7 | 4121,3 | 4470,4 | 5350,8 | 3,9 dəfə |

*Mənbə: Cədvəl www.stat.gov.az saytının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

İstehsal potensialından istifadənin iqtisadi səmərəliliyinin potensialların müxtəlif növlərinin fərqli səviyyə və istiqamətlərdə qiymətləndirilməsi ilə bağlı müəyyən problemlər yaranır. Yəni, əmək ehtiyatları, əsas vəsaitlər, torpaq və s. ehtiyatlardan istifadə səviyyəsi müxtəlif üsullarla qiymətləndirilir.

Əsas istehsal vasitələrindən istifadənin iqtisadi səmərəliliyi əldə edilmiş istehsal nəticələri və onların dəyərinin müqayisəsi yolu ilə müəyyən edilir. Bu vaxt bir sıra göstəricilərdən (fond verimi, fond tutumu, əsas istehsal vasitələrinin rentabelliyi və s.) istifadə edilir.

Qeyd edilir ki, əsas fondlardan istifadənin iqtisadi səmərəlilik göstəricilərinə nəzər saldıqda məlum olur ki, 2018-ci illə müqayisədə 2022-ci ildə kənd təsərrüfatında əsas fondların dəyəri 35,9 faiz artaraq 7441,1 milyon manatdan 10118,4 milyon manata çatmışdır. Əsas fondlardan istifadənin iqtisadi səmərəlilik göstəriciləri hesab edilən, əsas fondun hər manatına düşən aqrar sahənin ümumi məhsulunu ifadə edən fondverimi göstəricisi 4,5 faiz artmış, onun əksi olan fond tutumu göstəricisi isə 4,4 faiz azalmışdır. Bir işçiyə düşən əsas fondların dəyəri müqayisə olunan dövrdə 28,4 faiz artaraq 4494,2 manatdan 5771,7 manata, əsas fondların hər hektara düşən hissəsini ifadə edən fondla təminolunma göstəricisi isə 4,0 faiz artaraq 1665,1 manatdan 1732,3 manata yüksəlmişdir (cədvəl 3).

Əmək ehtiyatlarından istifadənin iqtisadi səmərəlilik göstəricilərinin təhlili göstərir ki, kənd təsərrüfatı müəssisələrində əksər məhsullar üzrə əmək məhsuldarlığının səviyyəsi müxtəlif istiqamətlərdə dəyişmişdir. Belə ki, 2018-ci illə müqayisədə 2022-ci ildə bir sentner məhsula əmək məsarifi dənli bitkilərdə 4,5 faiz, pambıqçılıqda 24,2 faiz, şəkər çuğundurunda 32,3 faiz, tütünçülükdə 4,2 faiz, kartofçuluqda 37,3 faiz, meyvə və giləmeyvədə 24,4 faiz azalmış, tərəvəzçilikdə 3,8 faiz, üzümçülükdə 0,6 faiz artmışdır (cədvəl 4).

**Cədvəl 3.**

## Əsas fondlardan istifadənin iqtisadi səmərəlilik göstəriciləri

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2018-ci ilə nisbətən 2022-ci ildə, %-lə |
|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatının ümumi məhsulu, milyon manat | 7010,0 | 7836,7 | 8428,9 | 9163,4 | 10984,2 | 156,7 |
| Kənd təsərrüfatında əsas fondların dəyəri, milyon man. | 7441,1 | 8379,9 | 8524,0 | 9230,3 | 10118,4 | 135,9 |
| Kənd təsərrüfatına yararlı torpaqlar, min ha | 4779,5 | 4779,7 | 4780,1 | 4780,6 | 4780,5 | 100,02 |
| Kənd təsərrüfatında məşğul əhali, min nəfər | 1769,3 | 1720,4 | 1696,5 | 1732,9 | 1753,1 | 99,1 |
| Fond verimi, manat | 0,88 | 0,94 | 0,99 | 0,97 | 0,92 | 104,5 |
| Fond tutumu, manat | 1,14 | 1,06 | 1,01 | 1,04 | 1,09 | 95,6 |
| Əməyin fondla təminatı, man/adam | 4494,2 | 4678,7 | 4810,7 | 5245,7 | 5771,7 | 128,4 |
| Fondla təminat, man/ha | 1665,1 | 1740,1 | 1783,2 | 1985,9 | 1732,3 | 104,0 |

*Mənbə: Cədvəl www.stat.gov.az saytının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

**Cədvəl 4.**

## Kənd təsərrüfatı müəssisələrində bir sentner məhsula əmək sərfi, adam/saat

| Məhsullar | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2018-ci ilə nisbətən 2022-ci ildə, faiz |
|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | 8,8 | 9,5 | 8,5 | 9,4 | 8,4 | 95,5 |
| Pambıq | 60,4 | 60,4 | 53,4 | 48,2 | 45,8 | 75,8 |
| Şəkər çuğunduru | 15,5 | 12,4 | 11,1 | 10,0 | 10,5 | 67,7 |
| Tütün | 370,1 | 349,9 | 354,7 | 343,2 | 354,6 | 95,8 |
| Kartof | 25,5 | 23,0 | 15,7 | 15,8 | 16,0 | 62,7 |
| Tərəvəz | 21,3 | 21,4 | 22,5 | 22,4 | 22,1 | 103,8 |
| Meyvə və giləmeyvə | 22,5 | 23,2 | 17,0 | 23,2 | 17,0 | 75,6 |
| Üzüm | 31,5 | 34,2 | 37,2 | 32,4 | 31,7 | 100,6 |

*Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Beləliklə, ehtiyatlardan səmərəli istifadə və onların qorunması müasir aqrar siyasətin əsas xətti olmaqla aqrar sahə istehsalının bütün mərhələlərində yeni yanaşma tələb edir. Məlumdur ki, respublikamızda aqrar sahə məhsullarının istehsalı ilə müxtəlif regionlar məşğul olur və hər bir bölgənin xüsusiyyətini, ehtiyatlarla təminat səviyyəsini bilmədən müsbət nəticələr verə biləcək tədbirlərdən danışmaq mümkün deyil. Bu istiqamətdə dövlət, istifadə etdiyi iqtisadi alətləri əhəmiyyətli istehsal ehtiyatlarından səmərəli istifadəyə yönəltmək hesabına regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi imkanlarını formalaşdırır.

Beləliklə, istehsal potensialının torpaq, əmək, texnika kimi amilləri, bütövlükdə məhsul istehsal etmək qabiliyyətini, son nəticəni əks etdirir. Bu həm də aqrar sahədə istehsal potensialının və onun reallaşdırılması imkanlarının müəyyənləşdirilməsi obyektiv iqtisadi şəraiti nəzərə almaqla konkret sahənin istehsal ehtiyatları ilə təmin edilməsi səviyyəsinin yaxşılaşdırılması tədbirlərini hazırlamağı mümkün edir.

Dissertasiyada istehsal potensialından (torpaq, əmək və əsas fondlar) istifadə və iqtisadi göstəricilərin səviyyəsi arasında asılılıq, 2018-2022-ci illər üzrə qiymətləndirilir. Bu amillər arasında asılılığın korrelyasiya və reqressiya təhlili aparılmış və nəticə R=0,99 olmuşdur ki, bu da amillər arasında sıx əlaqənin olması deməkdir.

Üçüncü fəsil **"Aqrar sahədə istehsal potensialından istifadənin stimullaşdırılması və səmərəliliyinin yüksəldilməsi istiqamətləri"**nə həsr edilir. Bu fəsildə aqrar sahə müəssisələrində istehsal potensialından istifadənin stimullaşdırılması və dövlət dəstəyinin əsas istiqamətləri, istehsal potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi, aqrar sahədə istehsal potensialının idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilir.

Qeyd edilir ki, ölkənin tələbatına uyğun aqrar sahə məhsulları istehsalının təmin edilməsi ilk növbədə iqtisadiyyatın bu mühüm sahəsinin istehsal potensialını gücləndirməyi və mövcud istehsal ehtiyatlarından daha səmərəli istifadəni şərtləndirir. Bunun üçün aqrar sahəyə maliyyə dəstəyinin göstərilməsi, innovativ ehtiyatların istehsala cəlb edilməsinin və onlardan geniş şəkildə istifadə

edilməsinin stimullaşdırılması, kəndin sosial və istehsal infrastrukturu arasında əlaqənin formalaşmasının təşviq edilməsi aqrar sahənin iqtisadi inkişaf strategiyasının prioritetlərindən hesab edilir. Araşdırmalara əsaslanaraq qeyd edilir ki, bu istiqamətdə istehsal və ehtiyat potensialından səmərəli istifadə üçün aqrar sahə məhsullarının rəqabət qabiliyyətini təmin edən innovasiya və investisiya siyasətinin gücləndirilməsi vacibdir.

Tədqiqat göstərir ki, aqrar sahədə iqtisadi inkişafı təşviq etməklə mövcud potensialın sabit və inkişaf etmiş quruluşunu formalaşdırmaq mümkündür. Bu baxımdan innovasiya yönümlü investisiya qoyuluşlarının təşviqinə, torpaq, əmək və texniki potensialın səmərəli istifadəsinə və infrastrukturun inkişafına yönəlmiş siyasət son dərəcə əhəmiyyətlidir. Sadalanan istiqamətlərdə ardıcıllıq baxımından institusional səviyyədə mütərəqqi yanaşma, texnoloji imkanları artırmaq və müxtəlif mülkiyyətli aqrar sahə müəssisələri arasında əlaqələrin inkişafına dəstək başlıca istiqamətlər hesab edilə bilər.

Qeyd edilir ki, aqrar sahədə spesifik infrastruktur, o cümlədən texniki təminatı, baytarlıq və bitki mühafizə xidmətləri, informasiya təminatı, məhsulun daşınması, saxlanması, təmizlənməsi, çeşidlənməsi, emalı, qablaşdırılması, marketinqi, rabitə, nəqliyyat və s. xidmətləri, istehsal potensialından səmərəli istifadəyə istiqamətləndirilməli və bu proseslər dövlət tərəfindən dəstəklənməlidir. İstehsal potensialından istifadənin təşviqi və səmərəliliyinin yüksəldilməsi mexanizmlərinə tullantısız və ekoloji təmiz məhsul istehsalının təşviqi məqsədilə vergi güzəştlərinin tətbiqi, yardımların edilməsi, təminatda güzəştli qiymətlər, borcların silinməsi və s. daxil edilə bilər.

Göstərilənləri nəzərə alsaq aqrar sahənin ehtiyat potensialını artırmaq və istehsal ehtiyatlarından istifadənin səmərəliliyini yüksəltmək üçün dövlətin təşviq siyasətinin aqrar sahədə istifadə olunan sənaye təyinatlı sahələrin innovativ inkişafının stimullaşdırması, kəndin istehsal və sosial infrastrukturunun inkişaf etdirilməsi, aqrar sahənin əmək potensialının gücləndirilməsi, aqrar fəaliyyət sahələrinin cəlbediciliyinin yaxşılaşdırılması və s. kimi sahələrə yönəldilməsi məqsədəuyğun hesab edilir. Eyni zamanda innovativ inkişafla əlaqədar olaraq aqrar sahənin potensialından

səmərəli istifadə üçün dövlət siyasətinin əsas istiqamətlərinə mexanikləşdirmənin genişləndirilməsini, texniki xidmətin yaxşılaşdırılmasını, istehsalın səmərəliliyinin yüksəldilməsini, emal sənayesində ehtiyat mənbələrinin müəyyənləşdirilməsini və onlardan səmərəli istifadənin təşviqini aid etmək olar.

Beləliklə, ehtiyat potensialından səmərəli istifadə, aqrar istehsalın səmərəli inkişafının demək olar ki, əksər problemlərinin həll edilməsinə, istehsal və təsərrüfat fəaliyyətində yüksək nəticələrin əldə edilməsinə imkan yaradır. Bu da mövcud iqtisadi vəziyyətdə ən vacib məsələlərdəndir. İstehsal ehtiyatlarının səmərəli istifadəsinin təmin edilməsi istənilən aqrar istehsal müəssisəsinin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilir, onun uğurlu inkişafı və uzunmüddətli fəaliyyətinin zəruri amili rolunu oynayır.

Diqqətə çatdırılır ki, istehsal potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi üçün istənilən iqtisadi rayonda, ərazidə geniş və çox istiqamətli istifadəyə yararlı torpaq, əmək və texniki potensial mövcuddur. Bu potensialların reallaşdırılması üçün şərtlər və xüsusiyyətlər, istifadənin səmərəliliyinin yüksəldilməsi yolları əsaslandırılır. Daha sonra aqrar sahədə istehsal potensialının elmi və innovativ əsaslarla idarə edilməsi mexanizmlərinin formalaşdırılması, idarəetmənin səmərəliliyinin daxili və xarici amillərdən asılılığı araşdırılır. Torpaq ehtiyatlarının səmərəli idarə edilməsi ekoloji və sosial-iqtisadi problemlərin həlli ilə əlaqələndirilir. Əmək və texniki potensialın idarə edilməsinə istehsalın idarə edilməsi konsepsiyasının elementi kimi baxılır, onların tənzimlənməsi və idarə edilməsi istiqamətləri müəyyən edilir.

Aqrar sahənin istehsal potensialının formalaşması və inkişaf etdirilməsi mexanizminin, mövcud istehsal potensialından istifadənin səmərəliliyinin tədqiqi və istehsal potensialından istifadə meyillərinin araşdırılması aşağıdakı nəticələrin formalaşdırılmasına imkan verir:

1. İqtisadiyyatın aqrar sahəsinin istehsal potensialının inkişafı dünya ölkələrində bu potensialın quruluşuna uyğun olaraq formalaşan alətlərdən, metodlardan və inkişaf mexanizmlərindən istifadəni əhatə edən yeni yanaşmalara uyğunlaşmanı tələb edir. Aqrar sahənin istehsal potensialının elmi-nəzəri və istehsal potensialından istifadənin iqtisadi səmərəliliyinin metodoloji əsaslarının tədqiqinə sistemli yanaşma

göstərir ki, istehsal ehtiyatlarından istifadə mürəkkəb və davamlı bir mexanizm olmaqla, onun komponentlərinin funksional əlaqələrinə əsaslanır.

2. Aqrar-sənaye inteqrasiyası şəraitində aqrar iqtisadiyyatın inkişafında mövcud meyllərin tədqiqi təkcə istehsal və ehtiyatlar arasındakı əlaqəni təsdiqləmir, eyni zamanda istehsal potensialından səmərəli istifadə arasındakı əlaqənidə müəyyənləşdirir. Bu da aqrar siyasətin prioritetlərinin reallaşdırılmasının səmərəliliyini artıran əsas amillərdən birinə çevrilir.

3. Ehtiyatların mövcudluğu, potensial istehsal imkanlarını xarakterizə edir. Bu baxımdan istehsalın və gəlirliliyin artmasının əsas amillərinə istehsal ehtiyatlarından istifadəyə investisiya qoyuluşunun artması, istehsalın artması fonunda maddi-texniki bazanın möhkəmləndirilməsi, torpağın keyfiyyətinin yaxşılaşdırılması, ixtisaslı işçi qüvvəsi ilə təminat, torpaq vahidinə düşən ümumi məhsul, ümumi gəlir və mənfəətin həcmi və s.daxildir.

4. Aqrar sahədə istehsal potensialından səmərəli istifadə strategiyasının reallaşdırılması, dayanıqlı iqtisadi inkişafın təmin edilməsində əhəmiyyətli rola malikdir. Bu, istehsalın təşviqi, elmtutumlu və yüksək texnolji məhsul istehsalının artırılması hesabına innovativ inkişafın təmin edilməsinə təsiri ilə xarakterizə olunur. Qeyd edilən strategiyanın əsasını, torpaq və əmək ehtiyatlarından istifadə səviyyəsinin yüksəldilməsi, istehsal edilən məhsulların və istifadə olunan texnologiyaların keyfiyyətinin yaxşılaşdırılması və innovativ texnologiyaların istehsalata tətbiqinin genişləndirilməsi təşkil edir.

5. Aqrar sahənin özünəməxsus xüsusiyyətləri kontekstində istehsal ehtiyatlarından istifadənin iqtisadi səmərəliliyinin təmin edilməsi ehtiyat potensialının inkişaf meyllərinin müəyyən edilmməsini şərtləndirir. Bunun üçün həm istehsal ehtiyatlarının mövcud səviyyəsinin, həm də inkişaf dinamikasının təhlilinə ehtiyac yaranır. Sonrakı mərhələdə istehsal ehtiyatlarından istifadənin iqtisadi səmərəliliyinin səviyyəsini və ona təsir edən amilləri kompleks şəkildə araşdırmaq mümkündür.

6. İstehsal potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi analitik nəticələri nəzərə alan strategiyaların formalaşdırılmasını tələb edir. Bu, statistik hesablamalarla yanaşı aqrar sahədə ehtiyatlardan

istifadə ilə bağlı iqtisadi proseslərin dinamikasının xüsusiyyətlərini də nəzərə almağa imkan verir. Ona görə istehsal potensialından istifadə səviyyəsinin qiymətləndirməsində obyektivliyi artırmaq üçün ehtiyat komponentlərinin vəziyyətini və inkişaf meyillərini əks etdirən ekonometrik metodlardan istifadə xüsusi əhəmiyyəti ilə fərqlənir.

7. İstehsal potensialının perspektiv inkişafının vacib şərtlərindən biri, dövlət dəstəyinin həyata keçirilməsi və zəruri proqramların işlənməsində hədəf göstəricilərinin və parametrlərinin müəyyənləşdirilməsidir. Bu, öz növbəsində müxtəlif xarici və daxili təsirlərə cavab olaraq müvafiq inkişaf tədbirlərinin hazırlanması üçün mütəmadi və sistemli təhlil tələb edir. Hazırlanan tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatında torpaqdan istifadənin inkişafı, əmək ehtiyatlarından səmərəli istifadə və texniki-texnoloji yeniliklərin istehsalata fəal şəkildə cəlb edilməsi mexanizminin formalaşması ilə bilavasitə bağlıdır. Son illərdə müxtəlif dövlət proqramlarının, aqrar sahənin inkişafının təşviqinə xidmət edən sərəncamların və digər dəstək tədbirlərinin qeyd edilən istiqamətlərdə əhəmiyyətliliyini qeyd etmək vacibdir.

8. Aqrar sahənin istehsal potensialının formalaşması və inkişafı aspektlərinin, eləcə də istehsal ehtiyatlarından istifadənin və səmərəliliyinin mövcud vəziyyətinin ümumiləşdirilməsi hazırda ayrı-ayrı istehsal sahələrinin idarəetmə sistemində qəbul olunan qərarların etibarlılığının artırılmasının vacibliyini ortaya qoyur. Bu da ehtiyatlardan istifadə baxımından aqrar sahə ilə bağlı müvafiq məlumatların əldə edilməsində analitik və ekonometrik metodların rolunu müəyyənləşdirir. Deməli, kənd təsərrüfatının istehsal potensialının daha səmərəli şəkildə idarə edilməsi üçün mövcud mexanizmlərin təkmilləşdirilməsinə təşkilati və metodoloji yanaşmaları inkişaf etdirmək, qeyd edilən metodlar vasitəsilə idarəetmə qərarlarının fəal xarakterini təmin etmək, daha təkmil idarəetmə mexanizminin formalaşmasına informasiya dəstəyi göstərmək vacibdir.

Göstərilənləri ümumiləşdirərək aqrar sahənin istehsal potensialının inkişaf etdirilməsi və mövcud potensialdan istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsinin məqsədəuyğunluğunu qeyd edə bilərik:

1. Aqrar sahənin davamlı inkişafının əsas şərti, torpaqların münbitliyinin qorunub saxlanması, bərpası, səmərəli istifadəsi və işğaldan azad edilmiş ərazilərin torpaqlarının da dövriyyəyə cəlb edilməsidir. Bununla əlaqədar, aqrar təsərrüfata yararlı torpaqların səmərəli istifadəsi və qorunması üçün zəruri iqtisadi mühitin formalaşdırılması, o cümlədən onların təyinatı üzrə istifadə edilməməsinə və torpaq münbitliyinin azaldılmasına görə məsuliyyətin müəyyənləşdirilməsi (müxtəlif cərimələr, sanksiyalar, qadağalar və s.) zəruridir. Həmçinin subsidiyaların müəyyən edilməsində keyfiyyətin və ərazi xüsusiyyətlərinin nəzərə alınması torpaqların daha səmərəli istifadəsinə müsbət təsir edə bilər.

2. Aqrar sahədə müxtəlif istehsal sahələrinin ixtisaslı mütəxəssislərlə, xüsusilə bitkilərin mühafizəsi, baytarlıq xidməti, texnika və texnologiyaların idarə edilməsi profilli işçilərlə təmin edilməsi, hazırda aktuallığı ilə özünü göstərir. Aqrar istehsalın ixtisaslı işçi qüvvəsi ilə təmin edilməsini yaxşılaşdırmaq məqsədilə, peşə təhsili və elmi-tədqiqat sisteminin inkişaf etdirilməsinə ehtiyac var.

3. Aqrar istehsalın səmərəliliyinin yüksəlməsi, işçilərin sosial fəaliyyətini stimullaşdıran iqtisadi mexanizmlər sistemi ilə sıx bağlıdır. Araşdırmalar göstərir ki, iqtisadi artımın yüksək sürəti, istehsalçıların əməyə olan marağı ilə təmin edilir. Eyni zamanda, məşğul əhalinin sayında artım baş versə də, aqrar sahə işçilərinin əmək haqqının iqtisadiyyatın əksər sahələri ilə müqayisədə aşağı səviyyədə olması istehsalın nəticələrinə mənfi təsir göstərir. Bununla əlaqədar olaraq əmək haqqı sistemini yaxşılaşdırmaqla, onun təşviq rolunu inkişaf etdirmək zəruridir.

4. İstehsal ehtiyatları ilə təmin olunma səviyyəsinə nəzər saldıqda məlum olur ki, aqrar fəaliyyətə yararlı torpaq sahəsi müqayisə olunan dövrdə artmışdır. Məlumatlar bu artımın əsasən biçənək və örüş-otlaq sahəsi hesabına baş verdiyini deməyə əsas verir. Bu isə heyvandarlığın inkişafına mənfi təsir göstərən ən ciddi amildir. Ona görə də torpaqların təyinatından kənar istifadəsinin qarşısının alınması ilə bağlı dövlət tərəfindən zəruri tədbirlərin həyata keçirilməsinə ehtiyac var.

5. Aqrar sahənin texnikaya olan tələbatının ödənilməsi səviyyəsində müəyyən problemlərin mövcudluğu məlum olur. Belə ki,

illər üzrə bu göstəricinin dinamikasında "Aqroservis" ASC-nin və digər strukturların dəstəyi ilə müsbət meyllər baş versə də, texniki ehtiyatlara tələbat tam şəkildə ödənilməmişdir. Ona görə də bu sahədə rəqabətin təmin edilməsi üçün yeni texniki təchizat strukturlarının yaradılmasına ehtiyac var. Bu, innovativ ehtiyatlardan istifadənin genişləndirilməsi ilə yanaşı, texniki vasitələrlə həyata keçirilən iş və xidmətlərin qiymətlərinin istehsalçıların maraqlarına uyğun şəkildə müəyyənləşməsinə müsbət təsir edər.

6. Aqrar sahə müəssisələrində istehsal potensialından istifadənin iqtisadi səmərəlilik göstəricilərinin təhlili göstərir ki, torpaq, əmək və texniki ehtiyatlardan istifadədə müsbət nəticələr əldə edilmişdir. Lakin istehsal potensialından istifadənin qiymətləndirilməsi nəticəsində müxtəlif illər üzrə mənfi və müsbət dəyişikliklərin baş verdiyini görmək mümkündür. Tədqiqatlar göstərir ki, bu amillər arasında sıx əlaqə var. Ona görə də istehsal potensialından istifadənin iqtisadi səmərəliliyi və istehsal potensialının qiymətləndirilməsində ekonometrik metodların geniş istifadəsi əsasında əsaslandırılmış tədbirlərin müəyyənləşdirilməsinə ehtiyac var.

7. İstehsal potensialının səmərəli şəkildə istifadəsinin dövlət tərəfindən dəstəklənməsi tədbirləri, aqar sahə məhsulları istehsalçılarının özünü maliyyələşdirmə mexanizmi ilə dəstək tədbirlərinin həyata keçirilməsinə, normal iqtisadi şəraitin təmin edilməsinə əsaslanmalıdır. Çünki subsidiyalar, müavinətlər və digər dəstək alətləri istehsalçıları istehsal potensialını qorumaq baxımından daha səmərəli idarəetməyə yönəltməlidir və onlar ciddi və fərqli şəkildə tətbiq edilməlidir.

8. Hər bir aqrar sahə müəssisəsi öz iqtisadi inkişaf strategiyasında idarəetmə qərarlarına xüsusi diqqət yetirməlidir. Bu zaman mövcud istehsal ehtiyatlarının qiymətləndirilməsi prioritet olmalıdır. Çünki, məhdud ehtiyatlar şəraitində onlardan ən səmərəli şəkildə istifadənin təmin edilməsi, məhz idarəetmə qərarlarının səmərəliliyinə söykənməlidir.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər aşağıdakı dərc edilmiş əsərlərdə öz əksini tapmışdır:**

1. Гасанова Ш.К. “Особенности эффектного использования производственного потенциала в аграрном секторе” // – Россия Киров: Конкурентоспособность в глобальном мире: экономика, наука, технологии, 2017, № 12, часть 6. – стр. 662-664.

2. Həsənova Ş.K. “Kənd təsərrüfatında istehsal resurslarından istifadənin mövcud vəziyyəti və inkişaf meylləri” // – Gəncə: Ümummili lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Müasir təbiət və iqtisad elmlərinin problemləri”, beynəlxalq elmi konfrans materialları, 2018. – səh. 305-308.

3. Həsənova Ş.K., İbrahimova R.R. “Aqrar sahədə istehsal potensialının səmərəli təşkilində inkişaf istiqaməti”. // – Gəncə: ADAU-nun Xəbərlər məcmuəsi jurnalı, 2019, № 2. – səh. 175-177.

4. Həsənova Ş.K. “Kənd təsərrüfatında istehsal potensialından istifadənin səmərəliliyi və yüksəldilməsinin kompleks təhlili” // – Gəncə: Ümummili lider Heydər Əliyevin anadan olmasının 96-cı il dönümünə həsr olunmuş “Müasir təbiət və iqtisad elmlərinin problemləri” beynəlxalq elmi konfrans materialları, 2019. – səh. 238-240.

5. Hasanova Sh.K., Hasanov A.N. “The role of agro – policy in efficient use of agricultural resource potential”. // – United Kingdom, Birmingham: International Conference “Process Management and Developments”, Novatel Birmingham Centre, 2019. – page 8-13.

6. Həsənova Ş.K., İbrahimova R.R. “Aqrar sahədə dövlət yardımlarının kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsində rolu”. // – Gəncə: ADAU-nun “Xəbərlər məcmuəsi jurnalı, 2020, № 1. – səh. 77-80.

7. Hasanova Sh.K., Hasanov A.N. “Scientific and theoretical basis for determining production capacity and assessment of resource opportunities in the agricultural sector”. // – Praha, Czech Republic: “Sciences of Europe” Vol 5, № 53 – 2020. – page 3-6.

8. Həsənova Ş.K., İbrahimova R.R. “Aqrar istehsalın səmərəliliyinin yüksəldilməsində dövlət dəstəyinin təsiri mexanizmi”. // – Gəncə: ADAU-nun “Xəbərlər məcmuəsi jurnalı, 2021, № 1. – səh.72-74.

9. Həsənova Ş.K. “Kənd təsərrüfatı müəssisələrində istehsal potensialindan istifadənin iqtisadi səmərəliliyi”. // – Gəncə: Ümummili lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Müasir təbiət və iqtisad elmlərinin problemləri” beynəlxalq elmi konfrans materialları, 2021. – səh. 287-293.

10. Hasanova Sh.K “The impact of production potential usage in agricultural field on economic development”. // – Melbourne, Australia: Science and innovations 2021: development directions and priorities, May 26, 2021. – page 13-23.

11. Həsənova Ş.K. “Torpaq, su və əmək resurslarından aqrar istehsalda səmərəli istifadə istiqamətləri”. // – Gəncə: “İnnovasiyalı İqtisadiyyat və Menecment” jurnalı, 2022, № 1. – səh.142-148.

12. Həsənova Ş.K. “Aqrar sferada istehsal potensialından istifadənin səmərəliliyinin metodoloji əsasları”. // – Bakı: “Kooperasiya elmi-praktiki” jurnalı. 2022, № 3 (66). – səh.77-85.

13. Гасанова Ш.К. “Оценка уровня использования производственного потенциала в аграрном секторе”. // – Москва: “Финансовая экономика” Всероссийский научно-аналитический журнал Россия, 125190, 2022, № 11. – стр.422-426.

14. Həsənova Ş.K., İbrahimova R.R., Ramazanov S.İ., “Aqrar sahədə iqtisadi potensialın regional inkişafının əsas istiqamətləri”. // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər” ictimai elmlər seriyası jurnalı, 2022, № 3 (112). – səh. 68-74.



Dissertasiyanın müdafiəsi 25 sentyabr 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində olan Azərbaycan Kooperasiya Universiteti ilə Bakı Biznes Universitetinin birgə ED2.46 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri Nərimanov rayonu, Nəcəf Nərimanov küç, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.08.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 43949 işarə

Tiraj: 100